**SLAVYAN XALQLARI ƏDƏBİYYATI**

# Möhkəm elmi təməl və populyarlaşmanın böyük təkanverici qüvvəsi
## *(Filologiya elmləri doktoru Aida Feyzullayevanın yaradıcılığı haqqında)*

**Zakirə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: zakiraalieva@rambler.ru

**Annotasiya.** Alimlərimiz arasında milli-mənəvi dəyərlərimizi, tariximizi, ədəbiyyatımızı qoruyub saxlayaraq, dövrümüzün qlobal çağırışlarına cavab verən intellektə, biliyə və dünyagörüşünə malik qadın alimlərimizin xüsusi yeri və çəkisi vardır. Azərbaycanın belə tanınmış qadın alimlərindən biri də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsinin böyük elmi işçisi, filologiya elmləri doktoru, professor Aida Feyzullayevadır. Elmi əsərləri ilə – "Azərbaycan yazıçıları Rusiyada: Milli ədəbiyyatın tarixi inkişafında təmas əlaqələrinin rolu", "Oljas Süleymenov: yaradıcılıq fəaliyyətinin spektral tədqiqi təcrübəsi", "Azərbaycanlıların dünyagörüşündə Şərq və Qərb amilləri", "20-ci əsr yazıçıları", "Müasir Azərbaycan ədəbiyyatında milli və ümumbəşəri ideyalar", "Müqayisəli tədqiqatlar işığında...: "Azərbaycanda müstəqillik dövrü rus ədəbiyyatının tədqiqinə" və s. kimi monoqrafiyalar, kitablar, elmi məqalələr, məruzələr və s. – alim dünya xalqlarını Azərbaycan ədəbiyyatı, onun tarixi, ədəbi-mənəvi dəyərləri ilə tanış edir, ümumbəşəri dəyərlərin və humanitar biliyin elmi-nəzəri əsaslarını yaradır. Aida Feyzullayevanın tədqiqata müqayisəli-tipoloji yanaşması dünya ədəbiyyatının görkəmli yazıçılarının (F.M.Dostoyevski, V.V.Veresayev, L.Qumilyov, O.Balzak, K.Balmont, O.Süleymenov, A.Axmatova və b.) əsərlərini də əhatə edir.
**Açar sözlər:** müqayisəli tədqiqatlar, populyarlaşdırma, Aida Feyzullayeva, dünya ədəbiyyatı, Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 02.11.2022; qəbul edilib – 13.11.2022

# Strong scientific basis and the main driving force of popularization
## *(on the creative work of Aida Feyzullayeva, doctor of philological sciences)*

**Zakira Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: zakiraalieva@rambler.ru

**Abstract.** Among our scientists, a special place and weight is occupied by our women scientists, who have the intellect, knowledge and outlook to respond to the global challenges of our time, preserving our national and spiritual values, history and literature. One of these women scientists of Azerbaijan is Professor Aida Feyzullayeva, senior researcher at the Department of World Literature and Comparative Studies of the Institute of Literature named after Nizami Ganjavi of ANAS, Doctor of Philology. With his works, – "Azerbaijani writers in Russia: The role of contact ties in the historical development of national literature", "Olzhas Suleimenov: the experience of a spectral study of creative activity", "Eastern and Western factors in the worldview of Azerbaijani writers of the 20th century", "National and universal ideas in modern Azerbaijani literature" , "In the light of comparative studies ...: (to the study of Russian literature during the period of Independence in Azerbaijan)" and other monographs, books, scientific articles, reports, and etc.) - the scientist introduces other nations to Azerbaijani literature, its history, literary and moral values, creates

scientific and theoretical foundations for universal human values and humanitarian knowledge. The comparative-typological approach of Aida Feyzullayeva to the study also includes the works of outstanding writers of world literature (F.M.Dostoevsky, V.V.Veresaev, L.Gumilyov, O.Balzac, K.Balmont, O.Suleimenov, A.Akhmatova and others).
**Keywords:** comparativistics, popularization, Aida Feyzullayeva, world literature, Azerbaijani literature, comparative literary studies

**Article history:** received – 02.11.2022; accepted – 13.11.2022

## Giriş / *Introduction*

Dövrümüzün qlobal çağırışlarına milli-mənəvi dəyərlərimizi, tariximizi, ədəbiyyatımızı yaşadaraq cavab verən intellektə, biliyə, dünyagörüşünə malik elm adamlarımızın sırasında qadın alimlərimizin xüsusi yeri vardır. Ən müxtəlif elm sahələrində qadın alimlərin sayının artması tendensiyası, elmdə qadın anlayışının artıq əsaslı şəkildə dəyişdiyinin göstəricisidir. Qadın alimlərə dünyanın hər yerində rast gəlinir və bu, artıq heç kimi təəccübləndirməyəcək reallıqdır. Eyni zamanda dünyanın hər yerində hər kəsi öz intellektual səviyyəsi, ziyalı düşüncəsi, məntiqli fikirləri, elmdə məsuliyyəti və hər cür siyasətdən uzaq elmi ideyalar uğrunda işləmək bacarığı ilə tanınan qadınları görmək də bir reallıqdır.

## Əsas hissə / *Main Part*

Azərbaycanda elmi biliklərin populyarlaşdırılmasında qadın alimlərimizin də böyük xidmətləri vardır və bu elmi bilikləri yaradan, cəmiyyətə təqdim edən qadın alimlərimiz nəinki respublikamızda, hətta xarici ölkələrdə də tanınmaqdadır. Azərbaycanın belə qadın alimlərindən biri də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsinin baş elmi işçisi Aida Feyzullayevadır. Aida xanımın adı, geniş elmi yaradıcılığı və fəaliyyəti həm respublikamızda, həm də onun sərhədlərindən uzaqda elmi ictimaiyyətə yaxşı tanışdır.

– "Mən hər zaman Nizaminin adını daşıyan elm ocağında çalışmağımla fəxr etmiş və bir elmi işçi kimi, bütün fəaliyyətimdə bu dahi şəxsiyyətin yüksək adına layiq olmağa çalışmışam. Özümə qarşı hər zaman son dərəcə tələbkar olmuş və bütün gördüyüm işlərə və əməllərimə kənardan nəzər salmağa bir növ adət etmişəm. Yaradıcılıq fəaliyyətimdə bu xüsusiyyətin böyük təkanverici qüvvəsini dərk edərək daim axtarışda olmuşam. Görünür, bütün suallar, tərəddüdlər və həqiqət axtarışları insanın intellekt və mənəviyyatının zənginləşməsini, inkişafını təmin edən əsas amildir" – bu sadə, səmimi sözlərin müəllifi olan Aida xanım Feyzullayeva filologiya elmləri doktoru, professordur [5].

"Азербайджанские писатели в России: Роль контактных связей в историческом развитии национальной литературы" (2006, "Rusiyada Azərbaycan yazıçıları: Milli ədəbiyyatın tarixi inkişafında əlaqələrin rolu"), "Олжас Сулейменов: опыт спектрального исследования творческой деятельности (2009, "Oljas Süleymenov: yaradıcılıq fəaliyyətinin spektral tədqiqi təcrübəsi"), "Восточный и западный факторы в мировоззрении азербайджанских писателей XX века" (2012, "XX əsr Azərbaycan yazıçılarının dünyagörüşündə Şərq və Qərb amilləri"), "Национальные и общечеловеческие идеи в современной азербайджанской литературе" (2016, "Müasir Azərbaycan ədəbiyyatında milli və ümumbəşəri ideyalar"), "В свете компаративистики...: (к изучению русской литературы периодf Независимости в Азербайджане)" (2019, "Müqayisəli tədqiqatlar işığında...: (Azərbaycanda Müstəqillik dövründə rus ədəbiyyatının tədqiqinə dair"), "Просторы мысли: (статьи, изданные в период Независимости Азербайджана) (2019, "Fikrin vüsəti: (Azərbaycanda Müstəqillik dövründə çap olunmuş məqalələr") və bu kimi bir sıra sanballı monoqrafiyaların, tədqiqatların, elmi və elmi-publisistik məqalələrin müəllifi Aida Feyzullayevanın əsərləri elmi ic-

timaiyyətin maraqla qarşıladığı, bir çox ölkələrin kitabxanalarında, elmi mühitdə ən çox mütaliə edilən kitablar sırasındadır.

Professor Aida Feyzullayevanın Azərbaycan ədəbiyyatının, elmi-filoloji fikrinin populyarlaşmasında xidmətləri də danılmazdır. Sadəcə, alimin bu istiqamətdə araşdırmalarının mövzularına diqqət yetirmək kifayətdir ki, bu böyük azərbaycançılıq sevgisinin və milli dəyərlərimizin tanıdılması sahəsində onun zəhmətinin böyüklüyünü görəsən.

Azərbaycan ədəbiyyatında maarifçilik epoxasına yaxşı bələd olan, onu ardıcıl və sistemli şəkildə öyrənən Aida xanım belə hesab edir ki, Azərbaycan ədəbiyyatında maarifçilik dövrü çox güclü və davamlı olmuşdu. Hələ ilk monoqrafiyasında o, belə bir qənaətə gəlmişdir ki, "Azərbaycan yazıçılarının publisistik fəaliyyəti keçən əsrin son rübündə Azərbaycan xalqının ədəbi-mədəni, ictimai-siyasi həyat və məişətinin bütün rəngarəngliyini görməyə imkan verir, eyni zamanda 80-90-cı illərdə ədəbiyyat qarşısında dayanan əsas problemlərin aydın mənzərəsini yaradır. Bir əsrdən artıq müddət ərzində Azərbaycan ədəbiyyatına tarixi qanunauyğunluq nəticəsində rus ədəbiyyatından humanist və demokratik ideyalarının intensiv nüfuz edilməsi müşahidə olunur və bununla yanaşı, Azərbaycan ədəbiyyatı yeni mövzularla, janrlarla dolğunlaşır və maarifçiliyin məcrasında tənqidi istiqamətin inkişaf etməsini təsdiq edən bədii əsərlərlə zənginləşir. Azərbaycan maarifçi ziyalılarının bu xüsusiyyətinin təzahürü müasir ədəbi prosesin estetik təcrübəsinə də dəlalət edir" [1].

"Gəncəli müdrik" ("Мудрец из Гянджи" ("Kaspi", 2014, 17 may) başlıqlı məqalədən Mirzə Şəfinin şeirlərinin qeyri-adi taleyini öyrənirik. "Şərqin indiki Hafizi" adlandırılan Mirzə Şəfi Vazehin müdrik və dərin poeziyasının bu gün də müxtəlif xalqların oxucularının, tədqiqatçılarının diqqətini cəlb edərək qəlbləri fəth etməkdə olduğu xüsusi qeyd edilir. Avropada ilk dəfə nəşr etdirdiyi "Mirzə Şəfinin nəğmələri"nin əsl müəllifini kəşf edən və üzə çıxaran F.Bodenştedtin "plagiatlığı" sayəsində dünya şöhrəti qazanmış "müsafir" şairin yaradıcılıq taleyini əvvəlcədən müəyyən etdiyindən söhbət açılır.

"Dünya şöhrəti" ("Мировое признание", "Kaspi, 2015, 24 yanvar) adlı məqalə "Şeyx Sənan" əsərinin 100 illik yubileyi münasibəti ilə yazılmışdır. Məqalə müəllifi Hüseyn Cavidin "İblis" faciəsinin fəlsəfi anlamını, güclü pafosunu, müharibə əleyhinə ruhunu, özünəməxsus təhlillərlə oxucularına təqdim edir. Dramatik poeziyamızda "İblis" klassik simvolik nümunəsinin bədii təcəssümün gücü ilə, dünyanın Lüsifer, Demon, Mefistofel kimi iblis tiplərindən olduğunu qeyd edir. Müəllif Hüseyn Cavidin Şərqi və ya Qərbi ideallaşdırmaq fikrindən uzaq olduğunu, sülh və tərəqqi naminə bütün bəşəriyyətə xidmət edərək, onlar arasında birliyə, dialoqa, əməkdaşlığa, ağlabatan və rasional hərəkətlərə çağırdığını vurğulayır: "Cavidin yaradıcılığı xüsusi diqqətə layiqdir: onun parlaq yaradıcılığının əsasında duran universal ideyalar dünya tərəfindən tanınmağa layiqdir".

«Y.V.Çəmənzəminlinin "Əli və Nino" romanının müəllifliyinə dair» ("К вопросу о причастности Ю.В.Чеменземинли к роману «Али и Нино», «Литературный Азербайджан», 2008, №1) adlı məqalədə, 2012-ci ildə nəşr edilmiş "XX əsr Azərbaycan yazıçılarının dünyagörüşündə Şərq-Qərb amilləri" adlı monoqrafiyasında tədqiqatçı "Əli və Nino" romanında iki ziddiyyətli və kontrast qatların izlənməsindən, onların əsasında duran müəllif və baş qəhrəmanın fərqli və ziddiyyətli mövqelərindən bəhs edir. Bu romanın görkəmli Azərbaycan yazıçısı Y.V.Çəmənzəminliyə aid olduğunu təsdiqləyən alim belə qənaətə gəlir ki, adıçəkilən əsərdə onun həyat və yaradıcılığına xas olan vətənpərvərliyin üzə çıxarılması zəruridir. Belə ki, romanın müəllifi L.Nussinbaum guya müsəlmançılığı Əsəd bəy titulu ilə qəbul etmiş, müəmmalı Qurban Səid ləqəbi altında Avropa oxucusunun qarşısında Azərbaycan xalqının milli obrazını rüsvay etmiş, milli musiqini, aşıq sənətini, adət və ənənələri bayağılaşdırmış, özünü vətəninin nalayiq bir oğlu kimi təsdiq etmişdir. Əsərdə Qarabağ və Şuşa haqqında erməniləşmiş saxta və uydurulmuş informasiya verilmişdir. Bununla yanaşı, "Əli və Nino" romanının kosmopolit müəllifi özünə yad olan vətənpərvərlik meyillərinin, milli xarakter və milli ruhun əsərin baş qəhrəmanı Əli xanın surətində öz parlaq təzahürünü tapmasına, ali ideyaları əks etdirməsinə cəsarətlə qərar vermişdir [6].

«AXC dönəmində Azərbaycan ədəbiyyatı» («Азербайджанская литература в период АДР», «Литературный Азербайджан», 2018, №5) adlı məqalədə milli ədəbiyyatda milli mövzu və milli dövlətçilik ideyaları, onların geniş şəkildə həyata keçirilməsi, tərənnüm və təbliğatı məsələlərinə to-

xunulur: "Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixinin əvvəlki dövrlərinin bütün xüsusiyyətlərini özündə cəmləşdirən son dövr 20-ci əsr və onun zirvəsi – milli ideologiyaya əsaslanan Azərbaycan Xalq Cümhuriyyətidir (1918-1920). Bildiyimiz kimi, milli ideyalar milli şüurun inkişaf dərəcəsi ilə əvvəlcədən müəyyənləşir. Fəal və azadlıqsevər insanların şanlı qalaktikası olan ADR ətrafında mütərəqqi Azərbaycan ziyalılarının nümayəndələri bir araya gəldilər: M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ü.Hacıbəyov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Hadi, Ə.Cavad, C.Cabbarlı. Azərbaycan cəmiyyətinin tam türkləşməsi, islamlaşması və avropalaşması ilə bağlı müsavatçıların azadlıqsevər fikirləri "sərgərdan filosof" Cəlaləddin Əfqaninin təlim və prinsiplərinə, eləcə də İ.Qasprinskinin dilin, düşüncənin və əməlin triadasına – "birliy"ə gedib çıxır".

"Eşqdə qurtuluş və ya Əli bəy Hüseynzadənin "Turan imperiyası" ("Спасение в любви или "Туранская империя" Али бека Гусейнзаде", "Kaspi", 2014, 15 mart) məqaləsində Azərbaycanın iki görkəmli mütəfəkkiri – Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun mürəkkəb və ziddiyyətli yaradıcılıq taleyindən bəhs olunur. Hər iki ədibin silahlı toqquşmaların qanlı nəticələrə yol verməməyə, xalqı uçurumdan uzaqlaşdırmağa, mənəvi-əxlaqi təkamül ideyalarını yaymağa çalışmaları diqqətə çatdırılır. Qeyd edilir ki, Ə.Hüseynzadə "Eşqdə qurtuluş" şüarını irəli sürməklə hesab edirdi ki, azadlığa və müstəqilliyə sülh yolu ilə – mənəvi dirçəliş, maarifləndirmə və cəmiyyətin tərəqqisi yolu ilə nail olmaq olar. Ə.Hüseynzadə və Ə.Ağaoğlunun ideoloji oyanışı, yaradıcılıqlarında əksini tapmış ideoloji-mənəvi axtarışlar, konseptual dəyişikliklər məqalədə geniş təhlil edilir.

"Magik realizm və Azərbaycan ədəbiyyatının gerçəkləri" ("Магический реализм и реалии азербайджанской литературы", «Литературный Азербайджан», 2015, №9) – Afaq Məsudun yaradıcılığı timsalında Avropa irrasionalist fəlsəfi cərəyanlarını ifadə edən magik realizm elementləri araşdırılır. Məqalə müəllifi "Modernizmin ataları" – Robert Muz (1880-1942), Ceyms Coys (1882-1941), Marsel Prust (1871-1922) və Frans Kafkanın (1883-1924) F.Nitşe, Z. Freyd, A.Berqsonun fəlsəfi irsindən bəhrələndiyini və bu qeyri-adi, yeni, irreal üslub və bədii fantastik formasının müasir Azərbaycan ədəbiyyatının nümayəndəsi olan Afaq Məsudun yaradıcılığında izlənildiyini qeyd edir. Məqalədə Avropa fəlsəfi-bədii təcrübəsi müasir Azərbaycan ədəbiyyatında müqayisəli-tipoloji üslub vasitəsi əsasında öyrənilən geniş konseptual problemin tərkib hisəsi kimi təhlil edilir.

Aida Feyzullayevanın müqayisəli-tipoloji üslubla bağlı tədqiqatçı münasibətinə aşağıdakı nümunələrdə diqqət edək: "Məlumdur ki, milli klassik ədəbiyyatımızda böyük mütəfəkkir M.F.Axundzadə yazıçı-novator kimi 6 komediyası ilə milli dramaturgiyamızın təməlini qoymuş və ilk dəfə olaraq həyatın bədii təsviri üçün qeyri-adi formadan – magik realizmdən istifadə etmişdir. Bax: "Müsyö Jordan və Dərviş Məstəli şah" ("Повесть о мусье Жордане, ученом ботанике и дервише Мастали-шахе, знаменитом колдуне»). Tənqidi ədəbiyyatımızın şedevri sayılan Cəlil Məmmədquluzadənin "Ölülər" pyesində dirilmənin möcüzəsinə inanan canlı "ölülər" acı gülüşlə ifşa olunur; Teatr və sənətin orijinal nümunəsi olan Ə.Haqverdiyevin reallıq və irreallığın uzlaşması ilə fərqlənən "Pəri-cadu" faciəsi; Mənəvi təmizlənmə mövzusu axirət dünyasının mistik təsviri vasitəsilə yazıçının "Cəhənnəm məktubları" satirik silsiləsində və Y.V.Çəmənzəminlinin "Cənnətin qəbzi" eyni irreal süjet quruluşu ilə seçilən yumoristik hekayəsi; Yeni Azərbaycan nəsrinin zirvəsi sayılan Yusif Səmədoğlunun "Qətl günü" romanı, Mövlud Süleymanlının silsilə romanları: "Köç", "Ceviz qurdu", "Səs" – Bu romanlar fantastik, möcüzəli, irreal süjeti ilə seçilir və milli ədəbiyyatımızı zənginləşdirir, eyni zamanda müqayisəli-tipoloji təhlillər üçün zəmin yaradır.

Yuxarıda adıçəkilən və çəkmədiyimiz bu qəbildən əsasən rus dilində nəşr olunmuş onlarla yazılar Azərbaycan ədəbiyyatının, onun klassiklərinin, görkəmli nümayəndələrinin tanıdılması baxımından böyük əhəmiyyət kəsb edən elmi mənbələrdir. Onu da qeyd edək ki, Aida xanımın təhsili rus dilində olsa da, Azərbaycan dilini də mükəmməl bilir və bu dili böyük məhəbbətlə tələbələrinə dərindən öyrətməyi özünə təkcə borc bilmir, eyni zamanda rus dili vasitəsi ilə Azərbaycan ədəbiyyatını, onun tarixini, ədəbi-mənəvi dəyərlərini digər xalqlara tanıdır, bəşəri dəyərlərin, humanitar biliklərin elmi-nəzəri təməllərini yaradır. Burada Xalq yazıçısı Anarın bir ifadəsini yada salmaq yerinə düşər: "Mən bir siyasətçi deyiləm, ədəbiyyat adamıyam və qısa müddət deputat işlədiyim üçün yaxşı bilirəm ki, siyasət insanları bir-birindən ayırır, ədəbiyyat, incəsənət isə birləşdirir" ("Azərbaycan türkcəsinin söz varlığı", 2005). Bu birləşdirici elmi təməlləri görmək üçün Aida Feyzulayevanın aşağıda

adıçəkilən tədqiqat əsərlərini nəzərdən keçirmək kifayətdir ki, onun bir alim kimi yaradıcılıq fəaliyyətinin miqyasını və ciddi elmi tutumunu dəyərləndirə biləsən.

Hələ sovetlər dövründə gənc tədqiqatçı ilk dəfə olaraq Tiflisdə nəşr olunan " Novoye obozreniye" qəzeti (1884-1906-cı illər) və Azərbaycan ədəbiyyatı məsələləri" mövzusunda namizədlik dissertasiyası yazmış və bu mötəbər mətbuat orqanında digər millətlərin nümayəndələri ilə yanaşı, H.Zərdabi, C.Məmmədquluzadə, E.Sultanov, Ə.Cavanşir, S.Mehmandarov, F.Köçərli, M.A.Şahtaxtinski və b. maarifçi ziyalılarımızın geniş fəaliyyətini ciddi faktlarla işıqlandırmışdı.

"XIX-XX əsrin əvvəlləri Azərbaycan yazıçıları və rus ədəbi-ictimai mühiti: milli ədəbiyyatın tarixi inkişafında təmasların rolu" ("Азербайджанские писатели XIX-начала XX вв. и русская литературно-общественная среда: Роль контактных связей в историческом развитии национальной литературы") adlı tədqiqat işi 1994-cü ildə müdafiə etdiyi filologiya elmləri üzrə doktorluq dissertasiyasının mövzusudur [2]. Dissertasiyada XIX əsrin 40-cı – XX əsrin 30-cu illərini əhatə edən bir əsrlik Azərbaycan ədəbiyyatının inkişafı, milli ədəbiyyatın inkişafında qarşılıqlı əlaqələrin rolu və dünya ədəbiyyatına gətirdiyi zənginlik, inkişaf qanunauyğunluqları geniş və ciddi elmi-nəzəri əsaslarla, zəngin tarixi materialla təqdim edilir. Müdafiə ərəfəsində Ali Attestasiya Komissiyasının göstərişi ilə rəy üçün Moskvaya göndərilən doktorluq dissertasiyası "sanballı elmi iş" kimi dəyərləndirilmişdir. Müstəqillik dövrünün başlanğıc illərinə təsadüf edən bu dövrdə Azərbaycan elmi üçün bu gözlənilməz, obyektiv münasibət və müsbət elmi rəy hadisəyə çevrilmişdi. Moskvada Dünya Ədəbiyyatı İnstitutunun professoru L.Qromova tərəfindən imzalanmış rəydə doktorluq dissertasiyanı yüksək dəyərləndirilmiş, milli ədəbiyyatın inkişaf qanunauyğunluqlarının üzə çıxarıldığını, dünya ədəbiyyatına verdiyi töhfənin çox aydın şəkildə göstərildiyi xüsusi qeyd edilmişdi.

2006-cı ildə "Elm" nəşriyyatında çap olunmuş "Azərbaycan yazıçıları Rusiyada: milli ədəbiyyatın tarixi inkişafında təmasların rolu" ("Азербайджанские писатели в России: Роль контактных связей в историческом развитии национальной литературы") monoqrafiyasında [3] – Milli ədəbiyyat və ədəbi əlaqələr tarixi kontekstində və Rusiyada yaşayan maarifçi ziyalıların yaradıcılığı əsasında janr rəngarəngliyi və müxtəlifliyi, dinamikası, kompozisiya və janr həllərinin orijinallığı, elmi-nəzəri inkişafı nəzərdən keçirilir. Kiçik formatlı epik əsərlərdən tutmuş ədəbi tənqidə qədər materiallarda janrların inkişafı və hərəkəti nəzəri əsaslarla izlənilir.

2012-ci ildə görkəmli alimin daha bir monoqrafiyası, "XX əsr Azərbaycan yazıçılarının dünyagörüşündə Şərq və Qərb amilləri" ("Восточный и западный факторы в мировоззрении азербайджанских писателей XX века") "Elm" nəşriyyatında işıq üzü gördü [6]. XX əsrin görkəmli Azərbaycan yazıçı və mütəfəkkirlərinin (Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu, H.Cavid, M.Hadi, M.S.Ordubadi, Y.V.Çəmənzəminli) yaradıcılığının germenevtik təhlilinə əsaslanan tədqiqatda onların həm əsərlərindəki, həm də hər birinin dünyagörüşündəki Şərq və Qərb amilləri üzə çıxarılır. XX əsr Azərbaycan yazıçılarının mənəvi təkamülü və yaradıcı dünyagörüşünün qlobal mahiyyəti açıqlanır.

"Müasir Azərbaycan ədəbiyyatında milli və ümumbəşəri ideyalar" ("Национальные и общечеловеческие идеи в современной азербайджанской литературе", 2016) [8]. Kitab müasir Azərbaycan ədəbiyyatının milli kimliyini şərtləndirən milli və ümumbəşəri ideyaların işıqlandırılması prizmasından öyrənilməsinə həsr olunub. Müasir Azərbaycan nəsri modernizm və postmodernizmin Avropa fəlsəfi-bədii təcrübəsinin yaradıcı inkişafı ilə səciyyələnir. Mövzunun əhatə dairəsi belədir: Y.Səmədoğlu, M.Süleymanlı, Anar və Afaq Məsud yaradıcılığında magik realizm elementləri və əlamətləri nəzərə çarpır. Müasir Azərbaycan nəsri və dramaturgiyasının həm milli, həm də transmilli zəmində geniş inkişaf parametrləri aşkarlanır. Ə.Cəfərzadə və F.Kərimzadə yaradıcılığında müasir tarixi romanın dinamikası və poetikası xüsusilə diqqətəlayiqdir; İ.Şıxlı, İ.Hüseynov və S.Əhmədlinin fərdi yaradıcılıq xüsusiyyətləri, yeni tipli ədəbi qəhrəmanı, milli mövzulu və problemi seçilən əsərləri; Elçinin nasir və dramaturq kimi yeniliyi; Kamal Abdulla yaradıcılığında yazı texnikası, modernizm və postmodernizm cərəyanları ətraflı öyrənilir. Tədqiqata cəlb olunan əsərlərin mətnlərinin təhlili aparılır, ümumiləşdirilmiş nəticələrin elmi şərhləri təqdim edilir.

"Müqayisəli tədqiqatlar (komparativistika) işığında: Azərbaycanda müstəqillik dövründə rus ədəbiyyatının öyrənilməsinə dair" ("В свете компаративистики: к изучению русской литературы в период Независимости в Азербайджане", 2019) [9]. Beş fəsildən ibarət kitabda Azərbaycanda

F.M.Dostoyevskini ardıcıl və səmərəli şəkildə öyrənən, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor M.Q.Qocayevin elmi yaradıcılıq fəaliyyəti öz əksini tapıb. Müəllif Dostoyevski və Tolstoyun həyat və yaradıcılığının yeni baxış və qiymətləndirmə perspektivində müqayisəli təhlili üçün əsas kimi rus dekadent şairlərinin yaşlı nəslinin nümayəndəsi, ədəbiyyatşünas D.S.Merejkovskinin 20-ci əsrin əvvəllərində yazdığı fundamental əsəri və yazıçı-həkim V.V.Veresayevin bir qədər sonra yazdığı "Canlı həyat" («Живая жизнь») kitabını diqqət mərkəzinə çəkir. Mövzunu sistemli öyrənilməsi məqsədi ilə yeni mənbələrə müraciət olunur.

Rus və dünya ədəbiyyatının görkəmli simaları haqqında təkcə "Literaturnıy Azerbaydjan" jurnalında A.Feyzullayeva "Qoqolun mistisizmi" ("Мистицизм Гоголя", 2015, №7), "Rus dekadansı" ("Русский декаданс", 2017, №3), "K.Balmontun mənəvi və yaradıcı zənginləşməsində Yaponiya" ("Япония в духовно-творческом обогащении К.Бальмонта", 2018, №4), "Balzakın həyat səhifələri və ya "Titanın sönməz şöhrəti" ("Страницы жизни Бальзака или немеркнущая слава титана", 2019, №10) "Çexovun dünya kədəri" ("Мировая скорбь Чехова", 2020, №10), "Bir dahinin sirləri: Dostoyevskinin Azərbaycanda tədqiqi" ("Тайны гения. Ф.М.Достоевски в Азербайджане", 2021, №11) və s. kimi elmi məqalələri də dərc olunmuşdur.

Görkəmli qazax şairi, alim-türkoloq, etimoloq Oljas Süleymenova həsr etdiyi "Oljas Süleymenov: yaradıcılığının spektral tədqiqi" (2004) adlı monoqrafiyası haqqında O. Süleymenov özü müsbət rəyi və təşəkkürünü bildirməklə yanaşı, bu işin davamlı olunmasını arzulayaraq iki yeni kitabını: "Turklər tarixdən əvvəl" ("Тюрки в доистории") və "Yazının dili" ("Язык письма") monoqrafiyaya əlavə olunmasını təklif etmişdi.

Aida xanım müsahibələrinin birində yazır: "2004-cü ildə Oljes Suleymenovun yaradıcılığına həsr olunmuş kitabım nəşr olundu. Bakıda olanda kitab görkəmli yazıçıya çatdırıldı. 1-2 gün keçəndən sonra o, Parisdən mənə zəng edib öz təşəkkürünü bildirdi: "Böyük zəhmət çəkmisiniz, amma mən istərdim ki, siz bu işi davam etdirəsiniz". Çox çəkmədi ki, Bakıya növbəti səfəri zamanı o, öz yeni kitabını mənə təqdim etdi. Bu əsər yeni təfəkkürlü alim-türkoloqun əvvəlki kitablarının davamı kimi onun konseptual elmi görüşləri barədə bütöv təsəvvür yaradır. Türkoloji problemlərin tədqiqində bir koordinasiya yaratmaq məqsədilə O.Süleymenovun qədim sivilizasiyaların qarşılıqlı əlaqələr tarixində türk amillərinin iştirakı və rolunu sübuta yetirən konsepsiyasına yaxın olan Azərbaycan alimlərinin elmi nailiyyətləri ilə yaxından tanış olaraq diqqət etmişdim ki, 2-ci nəşrdə onlar öz əksini tapsın və həmin istəyimə nail ola bilmişdim." 2009-cu ildə "Şərq-Qərb" nəşriyyatında "Oljes Süleymenov: yaradıcılıq fəaliyyətinin spektral tədqiqi təcrübəsi" kitabı ("Олжас Сулейменов: опыт спектрального исследования творческой деятельности") ikinci dəfə çap olundu [5]. Bu kitabda Oljas Süleymenovun yeni düşüncə tərzinin türkoloqu kimi elmi fəaliyyəti ayrıca fəsildə geniş şəkildə işıqlandırılır.

Aida Feyzullayevanın məqalələri "Müqayisəli ədəbiyyatşünaslıq", "Poetika.İzm", AMEA-nın "Xəbərlər", "Məruzələr" və "Məcmüə"ləri kimi elmi toplularda, "Elm", "Ədəbiyyat qəzeti", "Kaspi" qəzetlərində və "Literaturnıy Azerbaycan" dərgisində öz əksini tapib. Bu elmi və publisistik məqalələr yazımıza sığmayacaq qədər əhatə mövzuları olan materiallardır. Bu materialların informativ yükü geniş və ciddi elmi faktları əhatə etməklə yanaşı, maarifləndirici bir missiyanı da icra edir.

Onlardan bir nümunə: Anna Axmatova haqqında yazdığı "Deməli, sən beləsən, Şərq!" ("Так вот ты какой, Восток!" (http://ahmatova.niv.ru/ahmatova/kritika/fejzullaeva-aida-tak-vot-ty-kakoj-vostok.htm) – məqaləsindən bir abzası nəzərdən keçirək: – "Dövrün ən gözəl qadını, Sankt-Peterburq salonlarının cazibədar ulduzu, tacsız kraliça" – müasirləri onu belə görürdülər. Anna Axmatova nadir gözəlliyin poetik səsi ilə 20-ci əsrin rus və dünya poeziyasının tarixinə möhkəm şəkildə daxil oldu. Mənəvi əhəmiyyəti, şəxsiyyətinin füsunkarlığı, əxlaqi pafosu, dərin intellekti onun həm şair, həm də şəxsiyyət kimi böyüklüyünü vurğulayırdı... Axmatovanın sətirləri illərin dağıntıları, qorxusu, yoxsulluğu, aclığı, tənhalığı, blokadası, sərgərdanlığı, məşəqqətləri, ağır sınaqları ilə ağırlaşan məkan-zaman təəssüratlarının rəngarəng palitrasından doğulur... Və tamamilə təbiidir ki, Axmatovanın Şərq sevgisi hələ uşaqlıqdan Yaxın və Uzaq Şərq tarixinə, Böyük Çöl tarixinə həvəs göstərən oğlu, görkəmli alim Lev Nikolayeviç Qumilyova da siraət etmişdir. Onun "Qədim türklər" kitabı obyektivliyinə, dürüstlüyünə və ədalətinə görə ona layiqli şöhrət qazandırmışdır".

Aida xanımın Azərbaycanın müstəqillik dövrünün müxtəlif illərində çap olunmuş məqalələrinin böyük bir hissəsi "Fikrin vüsəti", («Просторы мысли», 2019) toplusunda yer almışdır [10]. Həm ədəbiyyatşünaslıq, həm də dilçilik üzrə, klassik və müasir Azərbaycan ədəbiyyatının aktual problemlərinə, Azərbaycanda rus ədəbiyyatının tədqiqinə, Azərbaycan elminə, incəsənət və mədəniyyətinə həsr olunmuş materiallar burada xronoloji ardıcıllıqla təqdim olunur.

Aida Feyzullayevanın görkəmli yazıçı-dramaturq Cəfər Cabbarlının tərcüməçilik fəaliyyəti haqqında "Mütərcim Cəfər Cabbarlı barədə yeni söz" ("Elm qəzeti", 2011, 12 iyul), ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, professor Arif Hacıyev haqqında "Arif Hacıyev elm yollarında" ("Ədəbiyyat məcmuəsi", 2013, s.24), Xalq rəssamı Rasim Babayev haqqında "Böyük qardaş və böyük sənətkar"( "Qobustan", 2013, №3), tanınmış füzulişünas alim Vəcihə Feyzullayeva haqqında "Füzulişünas alimin geniş yaradıcılıq üfüqləri " ("Elm qəzeti", 2018, 14 dekabr), əski ümumtürk mədəniyyəti kontekstində Azərbaycan xalqının soykökünün öyrənilməsində böyük xidmətləri olan görkəmli türkoloq Mirəli Seyidov haqqında "Mifologiya məktəbi – Mirəli Seyidov" ("Ədəbiyyat qəzeti", 2018,14 iyul), tanınmış tənqidçi, mədəniyyət və incəsənət xadimi, yazıçı, publisist, filologiya elmləri doktoru Gülrux Əlibəyli haqqında "Şəxsiyyətin harmoniyası" ("Ədəbiyyat qəzeti", 2018,17 mart) və s. bu qəbildən olan maraqlı silsilə yazılarını Azərbaycan ədəbiyyatı və elmi sahəsində görkəmli şəxsiyyətləri haqqında biliklərin populyarlaşmasına böyük töhfə hesab etmək olar.

İnternet saytlarında alimin kitablarının PDF variantları elektron kitabxanlardan ən çox paylaşılan, maraqla mütaliə edilən elmi mənbələrdir. Aida xanımın ən böyük peşəkar xidmətlərindən biri də dünya ədəbiyyatı kontekstində müqayisəli-tipoloji səpkidə tədqiq etdiyi Azərbaycan ədəbiyyatını və bu sahədə bilikləri, elmi nəticələri populyarlaşdırmaq məharətidir. Bu qarşılıqlı informasiyalaşdırma prosesi alimin zəngin elmi irsimizi tanıtmaq bacarığından irəli gəlir. Aida xanımın elmi əsərləri bir sıra xarici ölkələrdə, o cümlədən Rusiya, Almaniya, Rumıniya, Ukrayna, Qazaxıstanda da nəşr olunmuşdur. Kitabları Peterburqun M.Y.Saltıkov-Şedrin adına Dövlət Kitabxanasına, Moskva Dövlət Kitabxanasına, ABŞ-ın Vaşinqtondakı Konqress Kitabxanasına, Türkiyə Milli Kitabxanasına göndərilmişdir.

Aida xanımın geniş pedaqoji fəaliyyəti də elmi fəaliyyəti qədər diqqətəlayiqdir. Azərbaycan ədəbiyyatı tarixi üzrə ali təhsil müəssisələrində mühazirələr oxuyur. Tələbələrinin maariflənməsi onun həm alim, həm də pedaqoq kimi əsas missiyasıdır. Buna görədir ki, tələbə – filoloqlara ünvanlanmış "Azərbaycan korifeyləri" adlı dərs vəsaitində, N.Tusi, A.Bakıxanov, M.F.Axundzadə, H.Cavid və M.Hadi) yaradıcılığını səciyyələndirən dünyəvi problemlərdən söz açır. Bu uğurlu ciddi yaradıcılıq estafetini geniş oxucu auditoriyasına, elmi mühitə təqdim etdiyi "XX əsr Azərbaycan yazıçılarının dünyagörüşündə Şərq və Qərb amili" – adlı monoqrafiyası ilə (2012) davam etdirir [6]. Bu əsərdə XX əsr Azərbaycan yazıçı və mütəfəkkirlərinin – Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H.Cavid, M.Hadi, M.S.Ordubadi, Y.V.Çəmənzəminlinin dünyagörüşünü istiqamətləndirən Şərq və Qərb amilləri izlənilir və yeni prizmadan, yəni əsərlərinin tekstoloji təhlili əsasında bədii-estetik dəyərləri öyrənilir. Kitabda "Milli ənənələrin varisliyi, millətçilik və qərbçilik məsələləri ön plana çəkilmişdir. Təfəkkürün qloballığı H.Cavidin dramaturgiyasında bəşəri problemlərin həlli əsasında, M.Hadinin fəlsəfi-poetik əsərlərindəki Şərq və Qərb tendensiyalarının müşahidə olunması yolu ilə aşkarlanır. XX əsr Azərbaycan yazıçılarının konsepsiyasında Şərq və Qərbin sintezi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, milli tarixi romanın patriarxı M.S.Ordubadinin və onun müasiri olan yazıçı-alim Y.V.Çəmənzəminlinin dünyagörüşlərində öz əksini tapır, ətraflı təhlil və şərh olunaraq öyrənilir ("Xalq qəzeti", 2010, 10 yanvar)

Elmi-pedaqoji təcrübəsini gənclərə həvəslə çatdırmağa səy göstərən Aida xanım Feyzullayevanın elmi kadrların yetişdirilməsində də rolu böyükdür. Opponenti olduğu, rəy verdiyi tədqiqat işlərini təhlil edərkən həm dissertasiyanı, həm də dissertasiyanın mövzusu üzrə dərc olunmuş materialları ciddi elmi təhlildən keçirməsi, tələbkarlığı, obyektivliyi, sərrast, gərəkli analitik baxışları, məsləhətləri elmi kadrların yetişməsinə onun nə dərəcədə məsuliyyətlə yanaşdığının parlaq təzahürüdür. Bunu bir tədqiqatçı kimi şəxsən öz üzərimdə hiss etmişəm. Etiraf edim ki, professor Aida Feyzullayeva kimi bir alimdən dissertasiyamın müzakirəsində dinlədiyim rəy mənim üçün xoş olduğu qədər də qürurvericidir. Alimin ciddi iradları və məsləhətləri yalnız tədqiqat işlərinin yüksək elmi-nəzəri səviy-

yəsinə xidmət edir. “Türkiyə ədəbi mühiti və Anar yaradıcılığı” (2014) mövzusunda dissertasiya işinə yazdığı rəydən: “Dissertasiyada Anarın dünya ədəbiyyatından etdiyi tərcümələrdən söhbət açılır. Bununla yanaşı, onun Frans Kafka, Alber Kamyu, Jan Pol Sartrın şüuraltı psixologiyanın içərilərinə varmada oxşar cəhətləri barədə, Çingiz Aytmatovun nəsr poetikası ilə səsləşən, lakin tamamilə orijinal bir poetikanın yaradıcısı kimi tanınan Anarın bir çox əsərlərinə müraciət olunması, onun dünya ədəbiyyatından bəhrələndiyini, bu səbəbdən əsərlərində süjet, ideya səsləşmələri, oxşarlıqlar və paralellərin (“Ağ liman”, “Otel otağı”, “Vahimə”) aparılması təqdirəlayiqdir. Lakin bu süjet, ideya səsləşmələri, oxşarlıqlar və paralellərin təhlilində elmi-nəzəri səviyyəni artırmağa ehtiyac var”.

Azərbaycanda formalaşmış elmi baxışlar sistemi əsasında özünün elmi məktəbini yaratmış azərbaycanlı alimlərin biliklərin populyarlaşmasında da böyük rolu olmuşdur. Bu baxımdan filologiya elmləri doktoru, professor Aida Feyzullayevanın elmi yaradıcılığı və fəaliyyəti də bu gün gənc tədqiqatçılarımız üçün bir elmi məktəbdir.

Bütün yuxarıda qeyd edilənlərlə yanaşı, Aida Feyzullayeva həm də Respublika və beynəlxalq səviyyəli elmi konfrans və sessiyalarda, elmi tədbirlər və layihələrdə fəal iştirak edir. Aida xanım Feyzullayeva ədəbiyyatşünaslıq, ədəbi əlaqələr, dilçilik elmimizin kamil mütəxəssisi olduğu kimi, eyni zamanda milli-mənəvi dəyərlərimizi, milli qadınlıq ləyaqətimizin gözəl keyfiyyətlərini öz ziyalı simasında daşıyan Azərbaycanın tanınmış alim qadınlarındandır.

Aida xanımın böyük elmi yaradıcılıq ehtirası, Vətənini, xalqını, onun bütün maddi-mənəvi dəyərlərini sevərək elmi yaradıcılığında tərənnüm etmək həvəsi, möhkəm elmi təməllər üzərindən biliklərini paylaşmaq məharəti bu gün də davam etməkdədir. Aida xanım Feyzullayevanın varlığı Müstəqil Azərbaycanımızda qadın alimlərin cəmiyyətdə perspektivli platformasının əsaslarının yaradıldığını, elmin müxtəlif sahələrində qadın icmasının fəal mövqeyinin təmin edildiyini, populyarlığının gücləndirildiyini, eyni zamanda onların bəşəriyyətin intellektual aləmini zənginləşdirdiyini bir daha təsdiq edir.

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, müasir inkişaf şəraitində elmin və alimin populyarlaşması, tanıdılması, yeni nəsillərin davamlı elmi estafetini şərtləndirən və hər zamankından daha aktual görünən vəzifələrdəndir. Bu gün Aida xanım Feyzullayeva kimi ziyalı qadınların digər özəllikləri və gözəllikləri ilə yanaşı, elmi intuisiyası, zəhmətsevərliyi, yaradıcılığı dünyaya böyük elmi nailiyyətlər, kəşflər, ixtiralar bəxş etməkdədir.

## Ədəbiyyat / *References*

1. Maarif carçıları. Red. A.A.Hüseynov. Bakı: Maarif, 1988.
2. Фейзуллаева Аида. Азербайджанские писатели XIX – начала XX вв. и русская литературно-общественная среда. (Роль контактных связей в историческом развитии национальной литературы). Дис. … д-ра филол.наук: 10.01.03; 10.01.01 /Академия наук Азербайджана Институт литературы имени Низами Гянджеви. Баку: Элм, 1992.
3. Фейзуллаева Аида. Азербайджанские писатели в России. (Роль контактных связей в историческом развитии национальной литературы). Баку: Элм, 2006.
4. Фейзуллаева Аида. Олжас Сулейменов: Опыт спектрального исследования творческой деятельности. Ред. Б.Набиев; предисл. В.Арзуманлы; НАН Азерб. Ин-т литературы им. Низами Гянджеви. Баку: Şərq-Qərb, 2009.
5. Feyzullayeva Aida. Müsahibə. Söhbəti qələmə aldı: Almaz Ülvi. “Xalq” qəzeti, 2010, 10 yanvar.
6. Фейзуллаева Аида. Восточный и западный факторы в мировоззрении азербайджанских писателей XX века. Науч.ред. В.М.Арзуманлы; Нац. Акад. наук Азерб., Ин-т литературы им. Низами Гянджеви. Баку: Элм, 2012.

7. Фейзуллаева Аида. Элементы магического реализма в современной азербайджанской литературе // «Poetika.izm». Elmi jurnal. Bakı: Elm və təhsil, 2014, №1.
8. Фейзуллаева Аида. Национальные и общечеловеческие идеи в современной азербайджанской литературе. Науч.ред. И.Габиббейли; Ин-т литературы им. Низами Гянджеви НАНА. Bakı: Elm və təhsil, 2016.
9. Фейзуллаева Аида. В свете компаративистики... (к изучению русской литературы в период Независимости в Азербайджане) / науч. ред. И.Габиббейли; НАНА, Ин-т литературы им. Низами Гянджеви. Bakı: Elm və təhsil, 2019.
10. Фейзуллаева Аида. Просторы мысли (статьи, изданные в период Независимости Азербайджана) / науч. ред. Ш.Алышанлы; Ин-т литературы им. Низами Гянджеви Национальной Акад. наук Азерб., Отдел мировой литературы и компаративистики. Bakı: Elm və təhsil, 2019.

## Ведущая научная сила опоры и популяризации науки
### *(о творчестве доктора филологических наук Аиды Фейзуллаевой)*

**Закира Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: zakiraalieva@rambler.ru

**Резюме.** Среди наших ученых особое место и вес занимают наши женщины-ученые, обладающие интеллектом, знаниями и кругозором, чтобы отвечать на глобальные вызовы современности, сохраняя наши национальные и духовные ценности, историю и литературу. Одной из таких женщин-ученых Азербайджана является профессор, доктор филологических наук Аида Фейзуллаева, старший научный сотрудник отдела мировой литературы и компаративистики Института литературы имени Низами Ганджеви НАНА. Своими научными трудами – «Азербайджанские писатели в России: Роль контактных связей в историческом развитии национальной литературы», «Олжас Сулейменов: опыт спектрального исследования творческой деятельности», «Восточный и западный факторы в мировоззрении азербайджанских писателей XX века», «Национальные и общечеловеческие идеи в современной азербайджанской литературе», «В свете компаративистики...: (к изучению русской литературы периода Независимости в Азербайджане)» и др. монографии, книги, научные статьи, отчеты и т.д. – ученый знакомит другие народы с азербайджанской литературой, ее историей, литературно-нравственными ценностями, создает научно-теоретические основы общечеловеческих ценностей и гуманитарных знаний. Сравнительно-типологический подход Аиды Фейзуллаевой к исследованию включает и произведения выдающихся деятелей, писателей мировой литературы (Ф.М.Достоевский, В.В.Вересаев, Л.Гумилев, О.Бальзак, К.Бальмонт, О.Сулейменов, А.Ахматова и др.).
**Ключевые слова:** компаративистика, популяризация, Аида Фейзуллаева, мировая литература, азербайджанская литература, сравнительное литературоведение